XALİD ƏLİMİRZƏYEV

# ƏDƏBİYYATŞÜNASLIĞIN ELMİ-NƏZƏRİ ƏSASLARI

*(Tədris vəsaiti)*

«Elm və təhsil»
Bakı - 2011

8(01)
Ə 58

**Redaktor:** **Qara Namazov**
*filologiya elmləri doktoru, professor*

**Rəyçi:** **Abdulla Abasov**
*filologiya elmləri doktoru, professor*

261689

**Xalid Əlimirzəyev.**
**Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları *(tədris vəsaiti).***
**Bakı, «Elm və təhsil», 2011. – 416 səh.**

Kitabda ədəbiyyatın və onun tərkib hissəsi olan ədəbiyyat nəzəriyyəsinin mövzusu, predmeti, tədqiqat obyekti, sahələri: ədəbiyyat tarixi, ədəbi tənqid, ədəbiyyat nəzəriyyəsi və onun əsas inkişaf mərhələləri, ədəbiyyatın, sənətin idraki-tərbiyəvi əhəmiyyəti, ədəbiyyatda tipiklik, xəlqilik, millilik, bəşərilik, məzmun və forma, bədii əsərlərin dili, ədəbi növlər və janrlar, lirik növ, Azərbaycan şeirinin vəznləri, epik dramatik növ və onların janrları, bədii ədəbiyyatda gülüş, metod, üslub və ədəbi cərəyanlar kimi problem məsələlər yeni kontekstdə, müasir dövrün nəzəri-estetik tələbləri və dəqiq bədii–elmi faktlar əsasında araşdırılır, izah və təhlil olunur.

Kitab ali məktəb müəllimləri, tələbələr, bu sahə ilə maraqlanan mütəxəssis və oxucular üçün nəzərdə tutulmuşdur.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**Təkmilləşdirilmiş ikinci nəşr**

$$\frac{4603000000}{N-098-2011}$$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2011**

# GİRİŞ

Ədəbiyyatşünaslıq elmi və onun əsaslarını təşkil edən ədəbiyyat nəzəriyyəsinin həm klassik ədəbiyyatın tədqiqində, həm də müasir ədəbi prosesin və ədəbi tənqidin inkişafında, formalaşmasında rolu, əhəmiyyəti son dərəcə böyükdür. Ümumiyyətlə, ədəbiyyatşünaslıq elminə, xüsusən onun tərkib hissəsi olan ədəbiyyat nəzəriyyəsinə tam və hərtərəfli yiyələnmədən bütünlükdə bu elmi və onunla bağlı olan başqa problemləri dərindən öyrənmək, müasir tələblər əsasında tədqiq və təhlil etmək olduqca çətindir, bəlkə də qeyri-mümkündür.

Ədəbiyyatşünaslıq bir elm kimi nəzəri biliklər sisteminə daxildir. Onun tarixi ictimai-fəlsəfi fikrin, bütünlükdə nəzəri biliklərin tarixi qədər qədim və zəngindir. Ədəbiyyatşünaslıq quru elmi hökmlərdən ibarət, ümumi, mücərrəd bir anlayış deyildir. Onun da başqa elm sahələri kimi, öz predmeti və tədqiq obyekti vardır. Ədəbiyyatşünaslıq elmi canlı, dinamik, daim inkişafda olan bədii yaradıcılığı, bütünlükdə ədəbiyyat tarixini, ədəbi prosesi öyrənir, təhlil edir, məhz bu sahələrə əsaslanaraq özünün elmi-nəzəri hökmlərini verir.

Tarixən hər bir epoxa təkcə bədii ədəbiyyatını, incəsənətini deyil, həm də onun nəzəriyyəsini yaradır, elmi cəhətdən izah və şərh edir. Bu mənada ədəbiyyatşünaslıq elmi və onun əsası olan ədəbiyyat nəzəriyyəsi bədii ədəbiyyatla birlikdə yaranıb inkişaf etmiş, zaman keçdikcə formalaşmış, kamil nəzəri sistemə, orijinal, özünəməxsus qanunauyğunluqlara əsaslanan müstəqil elm sahəsinə çevrilmişdir. Ədəbiyyatşünaslıq elminin tədqiq və tədrisi hər bir xalqın milli ədəbi irsindən, dünya ədəbiyyatının inkişaf mərhələlərindən, ölməz sənət abidələrindən kənarda deyil, daim onlarla vəhdətdə, qarşılıqlı əlaqədə öyrənilməli, dərk və izah olunmadıdır. Çünki predmetsiz elm olmadığı kimi ədəbiyyatşünaslıq elmini də kamil ədəbi nümunələrə, incəsənət abidələrinə əsaslanmadan tam və hərtərəfli açmaq, öyrənmək mümkün deyildir.

Bədii ədəbiyyat və incəsənət kimi, onun mahiyyətini, ictimai məzmununu, poetik qayda və qanunlarını, daxili sirlərini,

cəmiyyətdəki rolunu, idraki və tərbiyəvi əhəmiyyətini öyrənən ədəbiyyatşünaslıq və ədəbiyyat nəzəriyyəsi də ictimai şüur formalarından biri, ideoloji mübarizə vasitəsidir. Bu cəhətdən o, klassik fəlsəfə və bütünlükdə ictimai fikir tarixi ilə birləşir, vəhdət təşkil edir. Təsadüfi deyildir ki, ədəbiyyat nəzəriyyəsi ilk yaranma mərhələsində ayrıca bir elm sahəsi kimi deyil, klassik fəlsəfənin tərkib hissələrindən biri kimi götürülür, dərk və izah olunurdu. Klassik fəlsəfənin inkişaf mərhələlərini, bütünlükdə ictimai məzmun və mahiyyətini müəyyənləşdirən şüur və maddi aləm, idrak və həyat, varlığın obyektiv və subjektiv dərki, materializm və idealizm, sənət və həyatda gözəllik, sənət və ədəbiyyatın mənşəyi, predmeti, ictimai-siyasi rolu, idraki və tərbiyəvi əhəmiyyəti kimi anlayışlar ədəbiyyatşünaslıq elminin ideoloji əsasını təşkil edir. Elə buna görə də, tədris prosesində artıq müstəqil bir elm sahəsi olan ədəbiyyatşünaslığın nəzəri biliklər sistemində yeri, mövqeyi müəyyənləşdirilərkən, daha düzgün və dəqiq nəticələrər gəlmək üçün xüsusi ilə, bu predmetlə yaxından bağlı olan fəlsəfə, tarix, estetika, məntiq, psixologiya və s. kimi elm sahələri unudulmamalı, mövzu məhz bu elm sahələri ilə vəhdətdə, əlaqəli şəkildə öyrənilməli, tədqiq və təhlil olunmalıdır.

Bununla yanaşı, ədəbiyyatşünaslıq elmi həm də indiyədək mövcud olan yanlış elmi müddəalardan, ideoloji təhriflərdən təmizlənməlidir. Ədəbiyyat və sənətdə ideya, estetik ideal, idrak və inikas, həyat həqiqəti və bədii həqiqət, sənətin mənşəyi, sənətdə ümumiləşdirmə, sənətdə fərdilik, sənətkar şəxsiyyəti, varlığın idealist və materialist dərki, həyata obyektiv, subyektiv münasibət, ilahi ruh, əbədi ruh, əbədi ideya, əbədi zəka, məzmun və forma, tarixilik və müasirlik, millilik və bəşərilik, sənətdə pafos, xəlqilik, ədəbi irs və varislik və s. kimi anlayışlara, nəzəri-estetik problemlərə yenidən baxılmalı, bu günün elmi tələbləri səviyyəsində şərh və izah olunmalıdır. Xüsusilə sənətin obyektiv qanunlarına, təbii inkişafına, tarixən formalaşmış yaradıcılıq prinsiplərinə zidd olan ədəbiyyatda partiyalılıq, sinifilik, bir millətin iki mədəniyyəti kimi qeyri-elmi müddəalar həmişəlik kənara atılmalı, bu müddəaların yanlış, zərərli mahiyyəti tam və hərtərəfli açılmalıdır.

Ədəbiyyatşünaslıq elminin tədrisində, öyrənilməsində,

bütünlükdə problemə münasibətdə son vaxtlara qədər özünü göstərən və adi ənənəyə çevrilmiş birtərəfliliyə, qeyri-elmi konsepsiyaya son qoyulmalıdır. Onun yaranmasında, inkişafında, bir elmi sistem kimi formalaşmasında təkcə Qərbi Avropa və rus mənbələrinin deyil, həm də Şərq və Azərbaycan ədəbi fikrinin rolu, əhəmiyyəti nəzərə alınmalıdır. Ümumiyyətlə, dünya ədəbi-nəzəri fikir tarixi bütöv, vahid bir anlayış kimi götürülməli, onu özlərinin söz və sənət haqqındakı dahiyanə mülahizələri, elmi-nəzəri müddəaları ilə zənginləşdirən Xətib Təbrizi, N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, F.Köçərli, C.Məmmədquluzadə və b. klassiklərimizin bu sahədəki böyük xidmətləri ayrıca qeyd olunmalıdır. Bu həm elmi obyektivlik, həm də dünya ədəbiyyat nəzəriyyəsi tarixində Azərbaycan ədəbi-estetik fikrinin yerini, mövqeyini müəyyənləşdirmək nöqteyi-nəzərindən vacib, zəruridir.

Bütün bunlarla yanaşı, ədəbiyyatşünaslıq elminin öyrənilməsi və tədrisi prosesində varislik prinsipi gözlənilməlidir. Çünki başqa elm sahələri kimi ədəbiyyatşünaslıq elmi də özünün çoxəsirlik inkişaf tarixində həmişə varislik qanunlarına əsaslanmış, ədəbi fikrin hər bir dövrü özündən sonra gələn dövr üçün zəmin və keçid mərhələsi olmuşdur. Ədəbiyyat nəzəriyyəsinin antik, intibah, maarifçilik və onlardan sonra gələn mərhələləri arasında qırılmaz daxili əlaqə, üzvü vəhdət mövcuddur. Bu mərhələlər oz dövrünün spesifik tələbləri, epoxal xüsusiyyətləri ilə yanaşı, bütünlükdə ədəbiyyat nəzəriyyəsi tarixinin və ümumi nəzəri estetik prinsiplərinin əsasını, ozülünü təşkil edir, biri digəri üçün keçid, zəmin xarakteri daşıyır. Dünya ədəbi-nəzəri fikrinin yaradıcıları olan Platon, Aristotel, Bualo, Lessinq, Volter, Didro, Hegel, Belinski, M.F.Axundov kimi mütəfəkkirlər təkcə tarixi şəxsiyyətlər deyil, həm də müasirlərimizdirlər. Bugünkü ədəbi axtarışlarımız və bədii təfəkkürümüz məhz belə böyük dühaların ədəbi - nəzəri irsinə söykənərək yaranır, formalaşır, yeni müddəalarla zənginləşir.

Yekun olaraq demək lazımdır ki, yuxarıda irəli sürülən problemlər, elmi-nəzəri tələblər ilk növbədə sənətdə tarixilik və müasirlik, tarixi müqayisəli metod anlayışına əsaslanır. Sənətdə müasirlik tələbi isə ədəbiyyat və incəsənətin bəşəri məzmununu, ictimai-fəlsəfi mahiyyəti və idraki-tərbiyəvi funk-

siyası ilə bağlı bir məsələdir. Bu xüsusiyyət ədəbiyyat və incəsənətin qayda-qanunlarını, yaradıcılıq prinsiplərini öyrənən ədəbiyyatşünaslıq elmi üçün də eyni dərəcədə xarakterdir. Bütünlükdə ədəbiyyatşünaslığın və onun müasir problemləri kursunun tədrisi əsasən yuxarıda şərh olunan elmi-nəzəri tələblərə arxalanmalı, izah və təhlil prosesi də məhz bu istiqamətdə aparılmalıldır.

# ƏDƏBİYYATŞÜNASLIQ ELMİNİN PREDMETİ VƏ ƏSAS TƏDQİQ OBYEKTİ

Məlumdur ki, predmetsiz elm yoxdur. Ədəbiyyatşünaslığın da bir elm kimi özünəməxsus predmeti, tədqiqat obyekti vardır. Elə buna görə də ədəbiyyatdan, bütünlükdə incəsənətin ən kamil növlərindən biri olan bədii yaradıcılığın məzmun və mahiyyətindən bəhs edən sahəyə ədəbiyyatşünaslıq elmi deyilir. Ədəbiyyatşünaslıq bədii təfəkkürün məhsulu olan bütün yaradıcılıq nümunələrini tarixi, nəzəri, müasir aspektdə tədqiq və təhlil edir, ona elmi-nəzəri cəhətdən qiymət verir.

Bədii yaradıcılıq son dərəcə mürəkkəb, canlı, dinamik bir proses olduğu üçün onunla bağlı olan tədqiq və təhlilin, elmi-nəzəri müddəaların məzmunu, əhatə dairəsi olduqca geniş və əhatəlidir. Buraya, bədii ədəbiyyatın – söz sənətinin mənşəyi, yaranma prosesi, inkişaf qanunları, ictimai məzmun və mündəricəsi, əxlaqi-etik rolu, idraki-tərbiyəvi əhəmiyyəti, həm özünəməxsus spesifik, həm də başqa incəsənət növlərilə bağlı cəhətləri, sənətdə xəlqilik, millilik, bəşərilik, varislik, tipikləşdirmə, fərdiləşdirmə, məzmun və forma, onların vəhdəti, daxili komponetləri, sənət əsərlərinin dili, obrazlar sistemi, poetik prinsipləri, ədəbi növ və janrlar, metod, üslub, ədəbi məktəb, cərəyanlar və s. problemlərin izahı, dərin elmi-nəzəri şərhi kimi məsələlər daxildir.

Ədəbiyyatşünaslığın predmeti, əsas tədqiq obyekti olan ədəbiyyatın, bədii yaradıcılığın özü nədir? Ədəbiyyat sözünün lüğəti mənası ədəb, mərifət, tərbiyə, zəriflik, gözəllik duyğusu, elm, bilik deməkdir. Ədəbiyyat humanizmə, xeyirxahlığa, ali, yüksək, bəşəri duyğulara xidmət edən, böyük emosional təsirə, tərbiyəvi əhəmiyyətə malik məfkurə vasitəsidir. Yarandığı dövrün tarixi gerçəkliyini, elmi-fəlsəfi, mənəvi-əxlaqi, mədəni təsisatını əhya edən bədii salnamədir. Bu salnaməni öz varlıqlarında əks etdirən, yaşadan, müxtəlif xarakterə, düşüncə tərzinə, psixoloji aləmə malik canlı, ölməz obrazlar aləmidir, rəngarəng, bir-birinə oxşamayan insan portiretləri qalereyasıdır. Yaşadıqları zaman, tarixi dövr arxada qalsa da, böyük mütərəqqi bəşəri ideaların, dünyəvi hiss və duyğuların daşıyıcıları olan bədii ob-

razlar, kamil insan xarakterləri heç vaxt ölmür, bəşəriyyətlə birlikdə irəliləyir, insanların müasirinə çevrilir, onlara mənəvi zövq, fərəh, sevinc bəxş edir, onlarda həyat eşqi, mübarizlik, qürur, ləyaqət, özünə hörmət hissi, vətənpərvərlik və insanpərəstlik duyğuları tərbiyə edir, bir sözlə, çətin anlarda onların həmdəminə, məsləhətçisinə, arxasına çevrilir. Dahi Nizami demişkən: «Hər qəlbi qırığa yeni can, hər ağır dərdliyə əl tutan» olur. Beləliklə, yüksək sənətkarlıq nümunəsi olan bədii obrazlar insanlığa həmişə böyük əqli-mənəvi qida verir, sağlam ideya, məfkurə vasitəsi səviyyəsinə qalxır, tarixdə əbədi yaşamaq hüququ qazanır.

İnsan zəkasının və fitri istedadın məhsulu olan ədəbiyyat, bədii yaradıcılıq ictimai şüurun formalarından biridir. İctimai şüur hər bir fərdin, millətin, bütünlükdə bəşəriyyətin həyat, maddi aləm, mövcud cəmiyyət, ətrafında baş verən hadisələr haqqındakı düşüncələrinin, elmi-nəzəri anlayışlarının toplumudur, onu dəqiqləşdirən ölçü vahididir. Hər bir xalqın, millətin vətənpərvərliyi, özünüdərki, dünyagörüşü, milli-mənəvi intibahı onun ictimai şüurunun səviyyəsilə ölçülür, qiymətləndirilir. Məlumdur ki, ictimai şüur quru yerdə, öz-özünə yaranmır. Onu formalaşdıran, inkişaf etdirən xüsusi ictimai-əxlaqi vasitələr, elmi-mədəni dəyərlər sistemi mövcuddur. Bu dəyərlər sistemində bədii ədəbiyyatın, ölməz sənət abidələrinin ayrıca yeri, çəkisi vardır. Şübhəsiz başqa ictimai şüur formaları ilə yanaşı böyük milli-bəşəri məzmunlu ədəbiyyatın, yüksək bədii sənət nümunələrinin də insanların əqli-mənəvi təkamülündə, elmi-mədəni tərəqqisində əvəzsiz rolu, xidməti olmuş və gələcəkdə də olacaqdır.

Ədəbiyyat, bədii yaradıcılıq incəsənətin növlərindən biridir. İncəsənət idrak və inikas prosesində ictimai-estetik məzmun kəsb etmiş, özünəməxsus yaradıcılıq xüsusiyyətlərinə malik bir sahədir. Hər bir sənətkar-istər şair, yazıçı, istər rəssam, heykəltaraş, memar olsun – yeni bir sənət əsəri yaradarkən son dərəcə ağır, mürəkkəb, eyni zamanda fərəhli bir daxili proses yaşayır, xüsusi hiss və duyğular keçirdir, gördüyü işdən zövq, ləzzət alır, sevinir. Bu ləzzət və sevinc hissi yüksək əqli-mənəvi keyfiyyətlərin, xeyirxah, humanist arzu və meyillərin, gözəllik anlayışının işığında təzahür etdiyi üçün böyük estetik təsirə ma-

lik olur. Belə incəsənət əsərləri oxucuya və ya tamaşaçıya da böyük estetik zövq verir, onun da qəlbində sevinc, fərəh, xoş, ülvi duyğular oyadır.

Obyektinə, təsir və ifadə formalarına görə incəsənət nümunələri bədii ədəbiyyat, rəssamlıq, heykəltaraşlıq, memarlıq, musiqi, rəqs, teatr, balet, kino və s. kimi müxtəlif növlərə bölünür. Rəssamlıq, heykəltaraşlıq, memarlıq-statik, donuq, hərəkətsiz sənətlərə; musiqi, bədii ədəbiyyat, rəqs canlı, dinamik hərəkətdə olan sənətlərə; teatr, opera, balet, kino, aşıq yaradıcılığı müxtəlif sənətlərin birliyi əsasında formalaşan sinkretik sənətlər sırasına daxildir.

Məlumdur ki, rəssam həyatı cizgilər və rənglər vasitəsilə təsvir edir. Onun təsvirini reallaşdırmaq üçün istifadə etdiyi əsas vasitələr kağız, kətan, lövhə, daşdır, yəni donuq, hərəkətsiz maddələrdir. Heykəltaraşın və memarın yaradıcılıq üçün istifadə etdiyi materiallar da hərəkətsiz, cansız əşyalardan ibarətdir. Buna görə də belə incəsənət növləri hərəkətsiz, yaxud statik sənətlər adlanır. Bədii ədəbiyyat, musiqi, rəqs, aşıq yaradıcılığı kimi sənətlər isə dinamika, canlı hərəkətlə bağlıdır. Oxumaq insanın nitqi və səsilə, şeir isə səs və yaxud yazı vasitəsilə reallaşan, təzahür edən sənət növləridir. Ona görə də bu növ sənətlərə dinamik, hərəkətlə bağlı sənətlər deyilir.

Bunlarla yanaşı, müxtəlif sənətlərin vəhdətindən yaranan incəsənət növləri də mövcuddur. Bunlara teatr, opera, balet, kino, aşıq yaradıcılığını misal göstərmək olar. Bu cür incəsənət nümunələrində həm statik sənətin əlamətləri, həm də dinamik sənətin əlamətləri birlikdə, qarışıq şəkildə öz bədii-estetik ifadəsini tapır. Belə bir vəhdət, qarşılıqlı əlaqə bədii materialın oxunuşunda, rejissor traktofkasında, aktyor oyununda, səhnə tərtibatında, rəssamın çəkdiyi dekorasiyalarda, səhnə üçün bəstələnmiş musiqidə, işıq vasitələrilə verilən müxtəlif rəng çalarlarında təzahür edir, reallaşır. Bu cür xüsusiyyətlər opera, balet, kino, aşıq yaradıcılığına da eyni dərəcədə aid olduğu üçün onlara sinkretik sənət deyilir.

Ədəbiyyat, bədii yaradıcılıq həm həyati idrak və inikas imkanlarına, həm də bədii-estetik təsir dairəsinə görə başqa incəsənət növlərindən müqayisə olunmaz dərəcədə yüksəkdə dayanır. Çünki şairin, yazıçının həyatı dərindən və hərtərəfli qav-

ramaq imkanı, müşahidə və yaradıcılıq diapozonu başqa sənət növlərinin yaradıcılıqlarından qat-qat artıq və genişdir.

Məsələnin mahiyyətini daha yaxşı aydınlaşdırmaq üçün bədii ədəbiyyatla rəssamlıq sənətinin yaradıcılıq imkanlarını müqayisə etmək kifayətdir. Böyük istedad sahibi olan, öz sənətinin sirlərini yaxşı bilən rəssam xalq qəhrəmanı Koroğlunun portretini yaradarkən onun xarakterinə, şücaətinə, mərdliyinə uyğun bir fon seçir, obrazını tamamlamaq üçün onu şahə qalxmış Qıratın belində, əlində Misri qılınc, dəlilərin əhatəsində düşmən üzərinə hücuma keçdiyi bir məqamda təsvir edir, rənglərin, boyaların kontrastından yerli-yerində istifadə edir, görkəmini, coşqun, igid naturasını tamamlamaq üçün xüsusi ştrixlər, cizgilər işlədir və bütünlüklə parlaq, gözəl, məzmunlu, cazibədar bir sənət nümunəsi yaradır. Ancaq bütün bunlar Koroğlunun qəhrəmanlıqlarla dolu həyatının ancaq bir anını özündə əks etdirir. Rəssamlıq sənətinin bundan o yana həyatı faktlarla təsvir və təqdim etmək imkanı yoxdur.

Bədii yaradıcılıqda «Koroğlu» dastanında biz Koroğlunun hərtərəfli işlənmiş, çoxşaxəli, həm ictimai, həm də fərdi simaya malik bitkin obrazı, mübariz xarakterilə qarşılaşırıq. Yaradıcı sənətkar (daha doğrusu yaradıcı aşıqlar) onun gənclik dövründən ta ömrünün sonuna qədər həyatını, bəylərə, xanlara, istismarçılara qarşı apardığı qəhrəmanlıq mübarizələrini, Nigar xanımla evlənməsini, ətrafına özü kimi igid dəliləri toplamasını, çoxlu ölkələrə hərbi səfərlərini, onun həm mahir söz, saz ustadı, həm qorxmaz, əyilməz, mərd bir qəhrəman, həm də humanist, xeyirxah, ədalətli bir insan, gözəl mehriban bir dost olduğunu bütün təfərrüatı ilə təsvir edir. Bu ölməz qəhrəmanın mükəmməl, bitkin zahiri və daxili portretini yaradır, onu bir insan kimi fərdiləşdirir, bütün üstün və kəsr cəhətlərilə birlikdə təqdim edir. Koroğlu boylu-buxunlu, dağ cüssəli, yaraşıqlı bir igiddir. O, düşmən üstünə gedəndə şirə, aslana dönür, dostlarının arasında, Nigar xanımla bir yerdə olanda həlim, mehriban, qayğıkeş bir həmdəmə çevrilir. Yeri gələndə uşaq kimi küsüb üç gün ağzı üstə yatır, bərkə düşəndə özündən igid rəqibinin qabağından qaçıb canını qurtarır, Keçəl Həmzə kimi simasız, miskin bir adama münasibətdə aldanır, çətin, çıxılmaz vəziyyətə düşür və s.

Beləliklə, nəticə olaraq demək lazımdır ki, həyatı, ictimai mühiti, ayrı-ayrı insan obrazlarını daha geniş və bütün detalları ilə təsvir və təqdim etmək imkanlarına malik olduğu üçün ədəbiyyat, söz sənəti həm ideya, məzmun, bədii mündəricə, həm də ictimai şüurun formalaşmasındakı roluna, əhəmiyyətinə görə incəsənətin başqa növlərindən əsaslı dərəcədə üstün və təsirlidir.

Bədii ədəbiyyat obrazlı sənətdir. İncəsənətin başqa növlərindən fərqli olaraq o insanı, onu əhatə edən ictimai mühiti, həyat hadisələrini bədii təxəyyülün süzgəcindən keçirərək obrazlaşdırır, ona yeni poetik məzmun verir. Bədii yaradıcılıqla məşğul olan sənətkar nədən yazırsa yazsın, onun poetik təsvirinin əsasında insan, onun əqli-mənəvi dünyası, ictimai qayə və amalı, həyat eşqi, hiss və duyğuları, psixoloji aləmi, fərdi, milli, bəşəri qayğı və arzuları dayanır. Buradan çıxış edərkən böyük sənətkarlar yaşadıqları dövrün ictimai-iqtisadi, sosial mənzərəsini, cəmiyyət hadisələrini obrazlara, xarakterlərə köçürdür, bu obrazların, xarakterlərin varlığı, düşüncə və anlayışları fonunda ictimai şüurun səviyyəsini dəqiqləşdirir, mövcud mühitin aparıcı, qabaqcıl meyillərini, xeyirlə şərə münasibətini müəyyənləşdirir, əxlaqi-etik nəticələrə gəlir, bütünlükdə zəmanələrinin bədii, poetik salnaməsini yaradır. O.Balzak nahaq yerə deməmişdir ki: «Ədəbiyyat insan qəlbinin tarixidir».

Həqiqi sənətin, obrazlı təfəkkürün əks-sədası olan bu salnamə isə bütün dövrlərdə insanlar üçün böyük idrak mənbəinə, məfkurə və tərbiyə məktəbinə çevrilir. N.A.Dobrolyubovun dediyi kimi: «Mütəfəkkir, yaxud sadəcə mühakimə yürütməyə qadir adam həqiqi faktlardan istifadə etdiyi kimi, sənətkar təxəyyülünün məhsulu olan bədii obrazlardan da istifadə edir. Bəzən, hətta bu obrazların varlığı mühakimə yürüdən adamı həyat hadisələri haqqında daha dəqiq, daha düzgün mühakimələrə aparıb çıxardır.

Beləliklə, sənətkar fəaliyyətinin ictimai həyatdakı digər fəaliyyət sahələri sırasında daha böyük əhəmiyyətə malik olduğu tamamilə aydınlaşır. Sənətkarın yaratdığı obrazlar həyatı faktları bir foks nöqtəsi kimi özündə cəmləşdirərək, predmetlər haqqında düzgün anlayışların yaranmasına və bu anlayışların insanlar arasında yayılmasına yaxından kömək edir».

Bədii sənət həyatı, faktları, insanın varlığını, mənəvi dünyasını, qayə və əməllərini, poetik lövhə, obrazlı ifadə və detalların köməyilə təsvir edir, bu aləmin məzmun və mənasını açır, mənfi və müsbət cəhətlərinin real ifadəsinə, həqiqi tərcümanına çevrilir. Elə bu xüsusiyyətinə görə əsil sənət əsərləri cəmiyyətinin intibahına təkan verir, insanların şüurunu, mənəviyyatını cilalayır, şəffaflaşdırır, gözəlliyə, nəcibliyə, xeyirxahlığa olan inamını artırır. Bu mənada ədəbiyyat «həyatın dərs kitabıdır». (Çernişevski)

Bədii sənət həmişə, hər yerdə real həyata, həqiqətə sadiq qalmaqla yanaşı, həm də aydın mənaya, yüksək poetik məzmuna malik olmalıdır. Həqiqi sənət böyük rus tənqidçisi V.Q.Belinskinin təbirincə desək, heç vaxt «mücərrəd fəlsəfi və xüsusi düşünülmüş ideyaları yaxına buraxmır, o yalnız poetik ideyaları qəbul edir. Poetik ideyalar isə silloqizm, doqma və qayda deyil, canlı etirasdır... İdeyalar zəkadan doğur, lakin canlı şeyi zəka deyil, sevgi yaradıb doğurur. Mücərrəd ideya ilə poetik ideya arasındakı fərq burada aydın görünür: birinci ağılın məhsulu, ikincisi isə sevginin, ehtirasın məhsuludur».

Buradan aydın olur ki, aralarında müəyyən müştərək cəhətlər olsa da, elmi-fəlsəfi idrakla bədii idrak, elmi təfəkkürlə poetik təfəkkür ayrı-ayrı anlayışlarıdır. Bu xüsusiyyətlərinə görə onların biri elm, digəri incəsənət adlanır. Əslində elm də, incəsənətin ən fəal formalarından biri olan bədii ədəbiyyat da insanlığın əqli-mənəvi inkişafına təkan verən, ictimai şüuru formalaşdıran məfkurə vasitəsidir. Bununla belə, həyati inikas prosesində elm mücərrəd təfəkkürə, təcrübə, dəlil, şərh, fakt və konkret rəqəmlərə, sənət, bədii ədəbiyyat isə poetik təfəkkürə, lövhə, obraz, ümumiləşdirmə, fərdiləşdirmə və şərtiliyə əsaslanır, bu yolla reallaşır. Onların hər ikisi – həm elm, həm də incəsənət ilkin mayasını, qidasını həyatdan alır. Hər ikisi varlığın, maddi aləmin, real gerçəkliyin inikası, ifadə vasitəsidir, yaranma və formalaşma prosesində yolları ayrılsa da, nəticədə vahid amala, bəşəri təkamülə, intibaha, ictimai-mədəni tərəqqiyə xidmət edir. Bu işi elm dürüst, əsaslı məfhumlar, incəsənət isə bədii lövhə, obrazlar vasitəsilə həyata keçirir.

Daha doğrusu: «Filosof əqli-məntiqi nəticələrlə, şair sürət və lövhələrlə danışır, lakin onların hər ikisi də eyni fikri

ifadə edir. Siyasi iqtisadçı statistika rəqəmləri ilə silahlanaraq öz oxucularının və dinləyicilərinin ağlına təsir göstərərək sübut edir ki, cəmiyyətdə filan sinfin vəziyyəti filan səbəblərə görə xeyli yaxşılaşmışdır və ya xeyli pisləşmişdir. Şair həyatın canlı və parlaq xatirələrilə silahlanaraq, öz oxucularının xəyalına təsir edərək düzgün lövhələrlə göstərir ki, cəmiyyətdə filan sinfin vəziyyəti filan səbəblərə görə doğrudan da xeyli yaxşılaşmış və ya pisləşmişdir. Birisi sübut edir, o birisi göstərir və hər ikisi inandırır, lakin birisi məntiqi dəlillərlə, o birisi təsvir etdiyi lövhələrlə inandırır». (V.Q.Belinski)

Lakin bu heç də o demək deyildir ki, elmlə incəsənət, elmi təfəkkürlə, bədii təfəkkür bir-birini inkar edir, onların arasında Çin səddi vardır. Əksinə, bir çox hallarda böyük sənətkarların yaradıcılığında elmi-fəlsəfi təfəkkürlə bədii təfəkkür daxili vəhdət təşkil edir, müəyyən mənada biri digərini tamamlayır. Təsadüfi deyildir ki, vaxtilə bu məsələyə münasibətini bildirərkən böyük şairimiz Füzuli demişdir: «Elmsiz şeir əsası yox divar kimi olur». Dahi yazıçılar bədii təfəkkürü elmi təfəkkürün işığında qavrayır, dərk edir, elmi faktların köməyilə bədii həqiqətin ictimai məzmun və mənasını, poetik siqlətini, təsir gücünü daha da artırır, onu, sözün əsil mənasında, insan zəkasının xəzinəsinə, ölməz bəşəri sərvətə çevirirlər.

Dünya ədəbiyyatının korifeyləri Homerin, Firdosinin, Şeksprin, Hüqonun, Balzakın, Hötenin, Tolstoyun, Azərbaycan ədəbiyyatının Nizami, Nəsimi, Füzuli, Mirzə Fətəli və s. kimi dahi sənətkarlarının yaradıcılığı, bədii əsərləri buna əyani misaldır.

Məlumdur ki, elm də, onu kəşf edən alim də hissdən, xəyaldan, fantaziyadan məhrum deyildir. Alim elmi kəşf, sənətkar isə bədii kəşf ustasıdır. Bu işi görəndə onlardan biri elmi məntiqə, digəri bədii məntiqə əsaslanır. Alim də sənətkar kimi insanlığın xoşbəxtlıyı, ictimai tərəqqisi naminə böyük elmi kəşfləri reallaşdırmaq üçün xəyala dalır, ağlını, hisslərini işə salır, səfərbər edir, fantastik duyğular keçirdir, məntiqi axtarışlar aparır, əməyinin bəhrəsini gördükdə sevinir, fərəhlənir, daxilən rahatlıq tapır. Buradan da belə nəticəyə gəlmək lazımdır ki, məsələnin mahiyyəti heç də elm və sənətin fikir yaxud hissdən, şüur, yaxud xəyaldan ibarət olmasında, ictimai məzmunlarının, ya-

ranma yollarının müxtəlifliyində deyil, daha çox onların varlıq, həyat və təbiəti başqa-başqa şəkil və formalarda qavramaqları, təsvir və təqdim etmələrilə bağlıdır.

Elm mücərrəd təfəkkürə əsaslandığı üçün onun daimi vətəni yoxdur, o yarandığı gündən insanlığa xidmət vasitəsinə, bəşəri sərvətə çevrilir. Sənət, bədii ədəbiyyat müəyyən bir xalqın, millətin dilində, onun təfəkkür tərzindən, mənəvi aləmindən, poetik hiss və duyğularından süzülərək yarandığı üçün daha çox milli özünəməxsusluq kəsb edir, məzmun və forma cəhətdən yüksək sənətkarlıq səviyyəsinə qalxdıqda isə həm milli, həm də bəşəri mahiyyət daşıyır. Bu mənada bədii yaradıcılıq mövzu və məzmun cəhətdən dünyəvi, forma cəhətdən milli sənətdir.

Sənət, ədəbiyyat həm də fərdi yaradıcılığın məhsuludur. Elmdən fərqli olaraq bədii yaradıcılıq həyat həqiqətini olduğu kimi təsvir etmir, onu özününküləşdirir, bədii təxəyyülün, poetik xəyalın köməyilə dəyişdirir, ona hərəkət, canlı nəfəs verir. Daha doğrusu, sənətkar həyatı təsvir edərkən bir növ onu yenidən yaradır, ona yeni bədii məzmun verir. Beləliklə, bu prosesdə bədii yaradıcılıqda sənətkar şəxsiyyəti anlayışı meydana çıxır. Elmlə sənəti, alimlə yazıçını bir-birindən fərqləndirən əsas cəhətlərdən biri də budur.

Məsələn, hamıya məlumdur ki, böyük rus alimi Mendeleyevin tərtib etdiyi «Elementlərin hərəkəti» cədvəli kimya elmi sahəsində nadir kəşf, dahiyanə tapıntı sayılır. Bu cədvəli nə qədər oxusan, hətta tam əzbərləsən belə onu yaradan adamın bir insan kimi şəxsiyyətini, fərdi dünyasını, mənəvi-əxlaqi keyfiyyətlərini, hiss və həyəcanlarını, yaşadığı cəmiyyətə, ətrafında olan insanlara münasibətini müəyyənləşdirmək mümkün deyil. Çünki burada həyat həqiqətlərinə, faktlara yeni məzmun verən fərdiyyət, yaradıcı şəxsiyyət yox, zəka, elmi təfəkkür ön plandadır.

Bədii ədəbiyyatda, sənətdə vəziyyət tamamilə başqa cürdür. Burada alimdən fərqli olaraq, yazıçının, yaradıcı şəxsiyyətin dünyagörüşü, ictimai qayə və idealı, həyat eşqi, insanlığa, dünyaya, yaşadığı cəmiyyətə münasibəti milli, bəşəri qayğı və düşüncələri, tendensiyası, sənətkarlıq bacarığı və s. əqli – mənəvi keyfiyyətləri, onun təsvir etdikləri, yaratdığı obrazların

varlığına hopur, oradan baş qaldıraraq özünün kimliyi, fərdi siması haqqında oxucuya məlumat verir. Məsələn:

Mən, mən olan gündən şahiddir aləm,
Bir qarışqanı da incitməmişəm.
Dürrümü çəkmədim özgə suyuna,
Pislik yaratmadım, düşmənəm buna,
Təmizdir vicdanım, ucadır adım,
Heç kimin haqqında pis danışmadım.

*Yaxud:*

Elə bir ixtiyar olsaydı məndə,
Qoymazdım bəndəyə möhtac bir bəndə.

- deyən Nizaminin yaradıcılığı ilə tanış olan oxucu dərhal hiss edir ki, bu əsərin müəllifi müdrik, humanist, böyük bəşəri qayğılarla, yüksək, ali hisslərlə yaşayan, daim insanlığın səadəti, xoşbəxtliyi uğrunda mübarizə aparan, zülmə, haqsızlığa nifrət edən, nəcib, pak, xeyirxah təbiətli bir şəxsiyyət, nadir istedad sahibi olmuşdur.

Yaxud: «Mən xalqımın və bəşəriyyətin dostuyam... Mən xalqı sevən, canını bu yolda qurban verməyə hazır olan bir adamam... Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətlərinin artması üçün, vətənin abadlaşdırılması üçün ədalətə rəvac verməkdir» deyən M.F.Axundovun ədəbi irsilə tanış olan bir adam, onun tərcümeyi-halından xəbərsiz olsa belə, çətinlik çəkmədən başa düşəcəkdir ki, bu irsin sahibi bütün şüurlu həyatını vətəninin və xalqının, bütünlükdə insanlığın azadlığı, xoşbətliyi, intibahı, əqli-mənəvi təkamülü, ictimai-mədəni tərəqqisi yoluna həsr etmiş, böyük humanist, mütəffəkir, döyüşkən, mübariz, düşmən qarşısında əyilməyən, heç vaxt əqidəsindən, amalından dönməyən nəhəng bir şəxsiyyətdir.

Elə bu xüsusiyyətlərə görə müxtəlif elmi kəşflərin sahibi olan alimin bu kəşfləri onun şəxsiyyəti, həyat tərzi, ictimai-fərdi siması haqqında heç bir məlumat vermədiyi halda, yazıçının, sənətkarın yaratdığı əsərlərə, ədəbi irsə istinadən onun şəxsiyyətini, ümumi fəaliyyətini, mübarizə yolunu, fərdi simasını müəy-

yənləşdirmək, bu və ya başqa dərəcədə açmaq mümkün və imkan daxilindədir.

Buradan aydın olur ki, bədii yaradıcılıqla sənətkar şəxsiyyəti biri-digərini tamamlayan vahid anlayışdır. Ona görə də bədii əsərlər tədqiq və təhlil olunarkən sənətkar şəxsiyyətinə laqeyd yanaşmaq və ya onu tamam lazımısız bir məsələ hesab etmək elmi cəhətdən əsaslı olmayan yanlış bir yoldur. Doğrudur, hər bir sənətkarın yaradıcılığı, bədii əsərləri öyrənərkən tədqiqatın əsasında ilk növbədə bu əsərlərin geniş və dərin elmi-nəzəri təhlili dayanmalıdır. Bununla belə, «bu əsərlərin məzmununu, mənasını, ictimai əhəmiyyətini dürüst müəyyən etmək üçün sənətkarın şəxsiyyətindən, yeri gəldikcə tərcümeyi-halından, tərbiyəsindən, mühitindən mütləq bəhs olunmalıdır. Bunlarsız əsərə, yaradıcılığa verilən qiymət də naqis olar. Hətta bəzən bunlarsız əsərləri yaxşı açıb izah etmək heç mümkün olmaz. Qədim tarixdə, eramızdan əvvəllərdə yaranan onlarca məşhur, mühüm əsərlər vardır ki, indi də onlardan bəhs olunanda müəlliflərinin naməlum həyat şəraitindən, məişətindən bəhs etməyə heç bir əlamət, material olmadığını alimlər dərin təəssüflə qeyd edirlər. Kimə məlum deyil ki, Homer, Aristofan, Aristotel, hətta Nizami, Şekspir şəxsiyyəti haqqında geniş, mükəmməl məlumat nə qədər zəngin olsa, bu böyük ədəbiyyat xadimlərinin əsərləri, fikirləri, qoyub getdikləri irs haqqında izah, şərh, tədqiq, təhlil də o qədər ətraflı, maraqlı, kamil olardı.

Sənətkarın şəxsiyyəti haqqında geniş məlumatın əhəmiyyəti yalnız faktların, tərcümeyi-hal xarakterli hadisələrin sadalanmasında deyildir. Bu faktlar sənət məsələlərinin, yaradıcılıq sirlərinin, ilham fanarının işıqlandırılması üçün, müəyyən məfkurə, mətləb, yaradıcılıq sirlərinin açılıb aydınlaşdırılması üçün çox cəhətdən maraqlı və qiymətlidir». (Mir Cəlal)

Məlumdur ki, hər bir sənətkar, yaradıcı qələm sahibi oz dövrünün oğlu, övladıdır. Onun yaratdığı əsərlər də yaşadığı zəmanənin əks-sədası, inikası, bədii salnaməsidir. Bu mənada sənətkarın həyatı, şəxsi tərcümeyi-halı, dövrünün ictimai-siyasi, mədəni təsisatı yaradıcılıqda çox mühüm əhəmiyyət kəsb edir. Çünki yaradıcı şəxsiyyətin tərcümeyi-halının mayası, özülü, onun keçirdiyi ilkin əqli-mənəvi təkamül prosesinin əsası doğulduğu, böyüdüyü, tərbiyə aldığı ailədən başlanır. Sənətkarın hə-

yatı, dünyagörüşünün sonrakı mərhələsi özülü, dayağı ailə olan mövcud cəmiyyətin, tarixi mühitin ictimai –siyasi, mənəvi prinsipləri əsasında formalaşır, təkmilləşir. Onun əsərlərində qoyduğu problemlər, əks etdirdiyi fikirlər, məzmun, ideya məhz bu cəmiyyətin, bu mühitin, tarixi gerçəkliyin bədii ifadəsi kimi reallaşır, meydana çıxır. Buna görə də sənətkar şəxsiyyətindən kənarda bədii yaradıcılıq yoxdur və onun ayrıca təhlilindən də söhbət gedə bilməz.

Məlum məsələdir ki, yazıçının şəxsiyyəti, əqli mühakimələri və mənəvi dünyası onun yaratdığı obrazların, xarakterlərin ruhuna, varlığına hopur. Bu obrazlar ictimai varlığı, həyat həqiqətini əks etdirməklə bərabər, həm də sənətkarın zəkasının, dünyagörüşünün, ictimai ideal və amalının, vətəndaşlıq mövqeyinin, mili-bəşəri duyğularının süzgəcindən keçərək formalaşır, onun dühasının, bədii təxəyyülünün işığında canlanır, həyata vəsiqə alır. Sənətin, bədii yaradıcılığın bu xüsusiyyəti həm də onu tələb edir ki, tədqiqatçı təhlil etdiyi əsərlərlə bərabər yazıçı şəxsiyyətinə tarixi obyektivlik prinsipindən yanaşmalıdır. Ona yaşadığı, yazıb-yaratdığı mühitin hüdudları daxilində, dövrünün ədəbi-nəzəri, ictimai-estetik tələblərindən, ideya, məzmun, metod, üslub xüsusiyyətlərindən çıxış edərək qiymət verilməlidir. XVIII əsrin şairi olan Vaqifin qarşısına Sabir dövrünün ictimai tələblərini, yaxud XVI əsrin şairi olan Füzulinin qarşısına Nizami dövrünün ədəbi-bədii tələblərini qoymaq olmaz. Sənətkarları və onların əsərlərini, yaratdıqları obrazları öz dövrlərindən ayırmaq qeyri-məqbul təhlil yoludur və bu həmişə tədqiqatçının yanlış elmi nəticələrə aparıb çıxardır.

Dünya, o cümlədən Azərbaycan ədəbiyyatı tarixində elə sənətkarlar vardır ki, onların həyatı, şəxsiyyəti, tərcümeyi-halları öz məzmun və mündəricəsinə, ictimai-tərbiyəvi əhəmiyyətinə görə yaradıcılıqlarından heç də geridə qalmır. Məslək, bəşəri ideal, insanlıq, vətən, xalq, ictimai tərəqqi uğrunda ardıcıl mübarizə aparan, bu yolda böyük əzm, iradə, fədakarlıq göstərən, bütün mərhumiyyətlərə, əzab-əziyyətlərə dözən, hətta həyatlarına belə qurban verən Nəsimi, Sabir kimi şairlərin varlığı nəsillər üçün həmişə ibrətamiz nümunədir. Bu həm də bədii yaradıcılıqda sənətkar şəxsiyyətinin nə qədər böyük rola, əhəmiyyətə malik olduğunu göstərən əyani misaldır.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA